Yeni Azərbaycan.- 2023.- 23 iyun.- S.8.

# Tarixi səhifə-səhifə rəngləmək

*Günel ABBAS*

Müsahibimiz “Rənglənmiş tarix” səhifəsinin admini, gənc rəssam Tural Hüseyndir. Təxminən 3 ilə yaxındır, Azərbaycanın tarixinə və tarixi şəxsiyyətlərinə aid ağ-qara fotoların rənglənməsi ilə məşğul olur.

Söhbətə başlayanda əvvəlcə ondan belə bir səhifə açmaq ideyasının haradan gəlməsi ilə maraqlandıq. Tural hər şeyin keçmişə, tariximizə olan marağından başladığını, hələ yeniyetmə yaşlarından müasir dünyanın diktə etdiyi dəbin təsirindən qurtulmaq üçün keçmişə tərəf yönəldiyini bildirdi.

Qalanını onun öz sözlərindən eşidək...

- 20-ci əsrin incəsənətinə, daha dəqiq desəm, bu dövrün musiqisinə, filmlərinə, geyim tərzinə, rəqslərinə, fotoqrafiya sənətinə məndə böyük maraq var idi. 2017-ci ildə təsadüfən bir neçə xarici rəssamın rənglədiyi ağ-qara fotolar rastıma çıxdı. Qərara gəldim ki, mən də cəhd edim və istənilən bir fotonu rəngləyim. Beləcə ilk təcrübələrimə başladım. Rənglədiyim fotoları əvvəlcə şəxsi “Facebook” profilimdə paylaşırdım. Bu fotoların sayı artdıqca, insanların işlərimə olan marağını gördükdən sonra şəxsi profilimi bağladım və “Rənglənmiş tarix” səhifəsini yaratdım.

**- Sosial şəbəkələr bugünkü fəaliyyətinizdə hansı yerləri tutur?**

- Hazırda fəaliyyətim sırf sosial şəbəkələr çərçivəsindədir. Bütün işlərimi “Facebook”, “İnstagram” və “Twitter”dəki “Rənglənmiş tarix” səhifəsində yayımlayıram. Yəqin ki, 20 il əvvəl bu işlə məşğul olsaydım, işlərimdən çox az adam xəbər tutardı. Amma 2023-cü ildə sosial şəbəkələr belə işlərin kəşf olunması üçün əlverişli mühit yaradır. Bizə qalan isə bu şəraitdən istifadə etməkdir.

**- Yəqin bu işlə həvəskar şəkildə məşğul olursunuz. Bəs, rəsmi qazanc yeriniz varmı?**

- Günlük həyatımın böyük bir hissəsinin bu işdən ibarət olduğunu nəzərə alıb deyə bilərəm ki, həvəskar olaraq başladığım bu iş artıq sənətimə çevrilib. Prosesin uzun illər davam edəcəyinə də şübhə etmirəm. 2014-2018-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsinin rəssam-dizayner ixtisasında təhsil almışam. Bir müddət qrafik dizaynla məşğul olsam da, hazırda bu işdən xeyli uzaqlaşmışam. Səbəb isə zamanımın böyük hissəsini “Rənglənmiş tarix”ə ayırmağımdır. Son zamanlar sifariş olaraq da foto rənglənməsiylə məşğul olmağa başlamışam. Düzdür, buna çox vaxt ayıra bilmirəm. Amma yavaş-yavaş çalışıram ki, bu sənətimi həm də gəlir mənbəyimə çevirim.

**- Bu işinizin texnikasından danışardınız bir az. Hansı prosedurlardan istifadə olunur?**

- Proses bir neçə mərhələdən ibarətdir. Əvvəlcə rənglənməsi nəzərdə tutulan fotonun rəqəmsal surətini əldə edirəm. Rənglənmə prosesindən əvvəl foto haqda maksimum dərəcədə məlumat toplamağa çalışıram. Bu məlumatlar rəng seçiminə çox böyük təsir edir. Daha sonra isə artıq hamımızın bildiyi “Fotoşop” proqramı köməyimə çatır. Fotonun bərpasına, ardınca rənglənmə mərhələsinə keçid edirəm. Rəng seçimi toplanılan məlumatlardan asılı olsa da, müəyyən detallara aid bilgi olmadığı üçün rəngin seçilməsində məntiq, texnika, rəngkarlıq bilikləri də böyük rol oynayır. Rənglənmə müddəti fotodan fotoya dəyişir. Fotodakı elementlərin sayı və mürəkkəbliyi, onun korlanma dərəcəsi, ümumi keyfiyyəti və başqa bu kimi səbəblər fotonun rənglənməsinə sərf ediləcək zamanı bir neçə saatdan bir neçə günə, bəzən isə bir neçə həftəyə kimi uzada bilər. Bəziləri düşünür ki, şəklə hansısa effekt, filter vasitəsilə bir neçə saniyədə rəng verirəm. Amma, bu, qətiyyən belə deyil. Fotonu hissə-hissə, hər bir detalını ayrılıqda rəngləyirəm. Eynilə yağlı boya rəngkarlığı kimi. Prosesin çox vaxt tələb etməsi də məhz buna görədir.




**- İlk rənglədiyiniz şəkil hansı idi?**

- Rus bəstəkarı S.Raxmaninovun 1921-ci ildə çəkilmiş portreti ilk rənglədiyim foto olmuşdu. Yəqin ki, həmin ərəfədə onun əsərlərini dinlədiyim üçün məhz onun şəklini seçmişdim. Rənglənmə o qədər də yaxşı alınmamışdı. Fotoda sünilik hiss olunurdu. Ümumiyyətlə, ilk işlərimdə nə qədər çalışsam da, heç cür istədiyim təbii rəngləri əldə edə bilmirdim. Zaman keçdikcə artıq bu problem xeyli azaldı. Artıq rənglədiyim şəkillər haqda “elə bil, indiki dövrdə çəkilib” şərhlərinə tez-tez rast gəlməyə başladım. Bu da yəqin ki, rəngləmə qabiliyyətimin getdikcə inkişaf etdiyindən xəbər verir.




## Fotolar bizi keçmişə aparır

**- Rənglənəcək fotoları necə seçirsiniz, haradan əldə edirsiniz?**

- Çalışıram ki, unikal, tarixi əhəmiyyət daşıyan, cəlbedici və bizi keçmişə apara biləcək gücə malik fotoları rəngləyim. Əsasən 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərinə aid şəkillər diqqətimi cəlb edir. Yeni başladığım zaman bütün fotoları internetdən əldə edirdim. Amma onların keyfiyyəti ürəkaçan olmurdu. Bir müddət sonra işlərimlə tanış olan kino rəssamı Şahin Həsənli, professor Ədalət Tahirzadə, ssenarist Füzuli Sabiroğlu öz arxivlərinə aid fotoları mənimlə paylaşdılar. Həmin şəkillər bu işin davam etməsində mənə çox kömək oldu. Əlbəttə ki, bunlar əldə edə biləcəyim tarixi fotoarxivin çox kiçik bir hissəsidir.

**- Hazırda bu işlə Sizdən başqa peşəkar şəkildə məşğul olan varmı?**

- Dünyada ağ-qara fotoların rənglənməsiylə məşğul olanlar çox olsa da, az qisim var ki, öz işində həqiqətən peşəkardır. Azərbaycandan Rəsul Həsənovun işlərini misal göstərmək olar. Bu yaxınlarda M.Ə.Rəsulzadənin mühacirət dövründə, yaşlı vaxtında çəkilmiş bir fotosunu da rəngləmişdi.